AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

# ELMİ XƏBƏRLƏR
# RESEARCH PAPERS
# УЧЕНЫЕ ЗАПИСКИ

Bakı - 2015

№ 6

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Elmi Xəbərlər

# Research Papers

# Ученые записки

## 6 / 2015

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12.01.01-ci il tarixli 132 saylı əmri ilə qrif verilmişdir.*

**Bakı – 2015**

# MÜNDƏRİCAT

## DİLÇİLİK

**Dünyamin Yunusov** ***(ADU)***
MÜASİR İNGİLİS DİLİNDƏ TƏYİN BUDAQ CÜMLƏLƏRİNİN SEMANTİK-SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ ..... 3
**Афаг Гамбарова** ***(АУЯ)***
КОНЦЕПТ «УЗЫ» КАК ЦЕНТРАЛЬНОЕ ПОНЯТИЕ, ОПРЕДЕЛЯЮЩЕЕ МИРОПОНИМАНИЕ КУЛЬТУР ..... 19
**Mahirə Hacıyeva** ***(ADPU)***
XIX-XX ƏSRLƏR AZƏRBAYCAN AŞIQ VƏ EL ŞAİRLƏRİNİN ƏSƏRLƏRİNDƏ ASSONANSIN RİTMİK-MELODİK ÇALARLARI *(Dərələyəz mahali üzrə)* ..... 23
**Sevinc Sadıqova** ***(ADU)***
AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ ARXAİKLƏŞMİŞ LEKSİK VAHİDLƏR ..... 33
**Səbinə Alməmmədova** ***(A.A.Bakıxanov adına Tarix İnstitutu)***
TERMİNOLOGİYANIN UNİFİKASİYASI VƏ STANDARTLAŞMASI HAQQINDA ..... 39
**Yusif Süleymanov** ***(AzTU)***
İNTERFERENSİYA PROSESİNDƏ TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏR ..... 46
**Ülviyyə Haciyeva** ***(ADPU)***
"AZƏRİ" SÖZÜNÜN MƏNŞƏYİ VƏ STRUKTURU ..... 55
**Rəna Əliyeva** ***(ADU)***
İSPAN DİLİNDƏKİ DİNİ MƏZMUNLU FRAZEOLOJİ VAHİDLƏRİN ALLYUZİAL FONU HAQQINDA *(qeyri-bibleizmlər)* ..... 60
**İradə Nəcəfova** ***(ADU)***
TİBBİ MƏTNLƏRİN TƏRCÜMƏSİ ..... 67
**Ramil Bayramov** ***(ADU)***
AZƏRBAYCAN DİLİNDƏ KALKA ÜSULU İLƏ YARANAN PSİXOLOGİYA TERMİNLƏRİ ..... 71
**Xanım Əhmədova** ***(Xəzər Universiteti)***
DİL VƏ PROTODİL ..... 79
**Səbinə İsmayılova** ***(BDU)***
DİLÇİLİKDƏ FEL PROBLEMİ İLƏ BAĞLI TƏDQİQATLARIN TARİXİ ..... 85
**Aynur Əliyeva** ***(ADU)***
BRİTANİYA DİALEKTLƏRİNDƏ İNGİLİS DİLİ SAİT VƏ SAMİT FONEMLƏRİNİN TƏLƏFFÜZ XÜSUSİYYƏTLƏRİNƏ DAİR ..... 91
**Zəhra Məmmədova** ***(Qərb Universiteti)***
MÜASİR İNGİLİS DİLİNDƏ MƏSDƏR TƏRKİBLƏRİ VƏ ONLARIN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ ..... 96
**Arzu Əlibalayeva** ***(ADU)***
MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İNKARLIQ KATEQORİYASI HAQQINDA ..... 101
**Səfurə İsayeva** ***(ADU)***
MÜASİR İNGİLİS DİLİNDƏ MƏKAN VƏ ZAMAN BİLDİRƏN SÖZÖNLƏRİNİN İŞLƏNMƏSİNƏ DAİR ..... 105
**Günay Zeynalova** ***(ADU)***
MÜASİR İNGİLİS DİLİNDƏ MƏSDƏR FELİN ŞƏXSİZ FORMASI KİMİ ..... 109
**Aysel Həsənova** ***(ADU)***
İNGİLİS DİLİNDƏN ALINMA TERMİNLƏRİN OMONİMLİK VƏ SİNONİMLİK XÜSUSİYYƏTLƏRİ ..... 114
**Vüsalə Məmmədova** ***(Qərb Universiteti)***
MÜASİR İNGİLİS DİLİNDƏ İSİMLƏRDƏ VƏ ƏVƏZLİKLƏRDƏ KƏMİYYƏT VƏ ONUN İFADƏ VASİTƏLƏRİ ..... 120

**Vüsalə Əlizadə *(ADU)***
BƏDİİ MƏTNLƏRİN FUNKSİONAL YÜKÜ ........ 125
**Arzu Eyvazova *(ADU)***
MÜASİR İNGİLİS DİLİNDƏ SİNTAKTİK SİNONİMİYA HAQQINDA ........ 129
**Asya Kərimova *(ADU)***
TƏKRAR MƏTN KOMPONENTLƏRİNİ ƏLAQƏLƏNDİRƏN VASİTƏ KİMİ ........ 133
**Leyla Alməmmədova *(ADU)***
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SABİT VƏ SƏRBƏST BİRLƏŞMƏ ANLAYIŞLARI HAQQINDA ........ 141
**Sara Hümbətzadə *(ADU)***
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ MÜRƏKKƏB SİNTAKTİK BÜTÖVÜN SƏRHƏDLƏRİNİN TƏYİN EDİLMƏSİ ........ 147
**Vahidə Hasilova *(ADU)***
AZƏRBAYCAN DİLİNDƏ İSMİ BİRLƏŞMƏLƏRİN STRUKTUR-SEMANTİK TƏHLİLİ ........ 152
**Nilufər Əşrəfli *(ADU)***
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MÜRƏKKƏB CÜMLƏ HAQQINDA ........ 157
**Элвира Хаирова *(ADU)***
ОСОБЕННОСТИ ПЕРЕВОДА СТИЛИСТИЧЕСКИХ ПРИЁМОВ В ЛИТЕРАТУРНОМ ПРОИЗВЕДЕНИИ *(на материале романа Габи Креслейнер "CharlottesTraum ")* ........ 163
**Анастасия Заславская *(АУЯ)***
ПЕРЕВОД НАУЧНО-ТЕХНИЧЕСКОЙ ТЕРМИНОЛОГИИ С АНГЛИЙСКОГО ЯЗЫКА НА РУССКИЙ ........ 168

***ƏDƏBİYYAT***

**Айбаниз Исмайлова *(АУЯ)***
ОСОБЕННОСТИ РАННЕГО ТВОРЧЕСТВА ДЖЕЙМСА ДЖОЙСА ........ 173
**Nuranə Nuriyeva *(ADU)***
QREM QRİN YARADICILIĞINDA SİYASİ ROMAN JANRI ........ 178
**Həmidə Əliyeva *(ADU)***
EPİK ŞÜURUN YARANMASI VƏ EPİK POEZİYA ANLAYIŞI ........ 183
**Rübabə Vəkilova *(ADU)***
H. FALLADANIN “BALACA ADAM, BAŞQA NƏ İSTƏYİRSƏN?” ROMANINDA “BALACA ADAM” PROBLEMİ ........ 190
**Aynurə Mehdiyeva *(ADU)***
İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI AMERİKAN ƏDƏBİYYATI VƏ CON APDAYK ........ 195
**Samirə Kazımova *(ADU)***
YENİ NƏSİL ALMAN MÜHACİR ƏDƏBİYYATI VƏ HETRA MÜLLER ........ 198
**Kəmalə Nuri *(ADU)***
VİRCİNİYA VULFUN “ŞƏXSİ OTAQ” ƏSƏRİNDƏ QADIN VƏ ƏDƏBİYYAT PROBLEMLƏRİ ........ 202
**Günay Məmmədova *(ADU)***
MARTİN EMİSİN “LONDON SAHƏLƏRİ” ƏSƏRİNDƏ QARA YUMOR ELEMENTLƏRİ ........ 207
**Könül Abbasova *(ADU)***
“MƏHŞƏR”ROMANINDA TARİXİLİK VƏ MÜASİRLİK ........ 212
**Nəzrin Məhərrəmova *(ADU)***
VAQİF NƏSİBİN “UZUNDƏRƏ” POVESTİNDƏ İNTERTEKST ƏLAQƏLƏRİN AŞKARLANMASI ........ 217
**Ülviyyə Xəlilova *(ADU)***
KAMAL ABDULLANIN "YARIMÇIQ ƏLYAZMA" ROMANINDA JANR ÖZÜNƏMƏXSUSLUĞU ........ 222

**Səbinə Musayeva** ***(ADU)***
ROMAN JANRININ YARANMASI VƏ XÜSUSİYYƏTLƏRİ ........ 226
**Leyla Sadıxova** ***(ADU)***
CON APDAYK YARADICILIĞINDA REALİST VƏ MODERNİST TƏMAYÜLLƏRİN VƏHDƏTİ ........ 230
**Mirvari Ağayeva** ***(ADU)***
"KURT VONNEQUTUN "PİŞİK ÜÇÜN BEŞİK" ƏSƏRİNDƏ QARA YUMOR ........ 235
**Gülyar Məmmədli** ***(ADU)***
ƏDƏBİYYATDA İTİRİLMİŞ NƏSİL PROBLEMİ ........ 241
**Zöhrə Nəsibova** ***(ADU)***
TENNESİ UİLYAMSIN "PLASTİK TEATR"I VƏ "ARZU TRAMVAYI" PYESİ ........ 246
**Gülnar Orucova** ***(ADU)***
CON FAULZUN "MAQ" ROMANINDA MİF VƏ ƏSATİRLƏRİN ROLU ........ 251
**Qumral Məmmədli** ***(ADU)***
J. P. SARTRIN "ÜRƏKBULANMA" ROMANININ ƏDƏBİ-FƏLSƏFİ XÜSUSİYYƏTLƏRİ ........ 256
**Xatirə Dadaşova** ***(ADU)***
UİLYAM FOLKNER YARADICILIĞININ ÖYRƏNİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ ........ 261
**Leyla Qocayeva** ***(ADU)***
C.COYSUN "SƏNƏTKARIN GƏNCLİK PORTRETİ" ROMANINDA İRLANDİYA OBRAZININ TƏCƏSSÜMÜ ........ 266
**Fəhminə İsmayılova** ***(ADU)***
BAYRONUN "ŞƏRQ POEMALARI"NDA QƏHRƏMANLARIN PORTRETİ ........ 272
**Ayşən Qəhrəmanova** ***(ADU)***
FRANSUAZA SAQANIN ƏDƏBİ İRSİ ........ 277
**Lalə Həsənli** ***(ADU)***
VAŞİNQTON İRVİNQİN YARADICILIQ YOLU ........ 282
**Pərvanə Babalı** ***(ADU)***
UIİLYAM QOLDİNQİN "MİLÇƏKLƏR HÖKMDARI" ROMAN-PRİTÇASINDA İNSAN VƏ CƏMİYYƏT PROBLEMİ ........ 286
**Gülər Ağayeva** ***(ADU)***
V.S.NAYPOL NƏSRİNİN İDEYA-BƏDİİ ƏSASLARI ........ 292
**Elşən Qurbanov** ***(ADU)***
CEK KERUAK VƏ ONUN "YOLDA" ƏSƏRİNİN GETDİYİ YOLLAR ........ 296
**Türkən Süleymanova** ***(ADU)***
AMERİKA ƏDƏBİYYATINDA MODERNİZMİN TƏŞƏKKÜL TAPMASI ........ 301
**Xədicə Xəlilova** ***(ADU)***
İVLİN VONUN YARADICILIĞINDA İNGİLİS SATİRİK ƏNƏNƏSİ ........ 306
**Şəbnəm Xəlilzadə** ***(ADU)***
QREM QRİNİN "BİR SEVGİ HEKAYƏTİNİN SONU" ƏSƏRİNDƏ DİNİ-MƏNƏVİ DƏYƏRLƏRİN VERİLMƏSİ ........ 311
**Dilşad Rüstəmova** ***(ADU)***
BERNARD ŞOU DRAMATURGİYASININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ ........ 316
**Саадат Гулиева** ***(Университет Азербайджан)***
ДЭВИД АЛМОНД – СОЗДАТЕЛЬ ЖАНРА МАГИЧЕСКОГО РЕАЛИЗМА В БРИТАНСКОЙ ДЕТСКОЙ ЛИТЕРАТУРЕ *(на примере повестей «Скеллиг» и «Малчик, который плавал с пирангами»)* ........ 320

***DİGƏR SAHƏLƏR***

**Эльмар Гусейнов**
**Заур Мамедов** ***(АГАФКС)***
МЕТОД СЕРИЙНОГО ОПРОСА В ПСИХОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ ........ 326

**Jalə Mehrəliyeva** ***(ADU)***
İNGİLİS DİLİNDƏ SƏRBƏST SOZ BİRLƏŞMƏLƏRİNİN KOMMUNİKATİV FORMADA TƏDRİSİ YOLLARI ........ 337
**Ирана Маммедли**
**Эльнара Пириева** ***(БГУ)***
ИЗУЧЕНИЕ РОЛИ ЦЕННОСТЕЙ В ФОРМИРОВАНИИ ИДЕНТИЧНОСТИ МИГРАНТА ........ 344
**Гюльнара Гусейнова** ***(БГУ)***
ЦЕННОСТИ КАК СОДЕРЖАТЕЛЬНЫЙ КОМПОНЕНТА КУЛЬТУРЫ ........ 352
**Qızxanım Qəhrəmanova** ***(ARTPİ)***
İDARƏETMƏDƏ KİŞİ VƏ QADIN MÖVQEYİNİN AKTUAL MƏSƏLƏLƏRİ ........ 360
**Namiq Əsədov** ***(ADU)***
1828-1829-CU İLLƏRDƏ ERMƏNİLƏRİN NAXÇIVAN ƏRAZİSİNƏ KÖÇÜRÜLMƏSİ ........ 366
**Nuralı Çələbiyev** ***(AMİ-nin Şəki filialı)***
"DEVİANT" DAVRANIŞ FORMALARI VƏ ONLARIN ELMİ İZAHINA YANAŞMALARIN MÜXTƏLİFLİYİ ........ 371
**Hikmət Əhmədov**
**Şəfayət Fərəcov** ***(BDU)***
XIX ƏSRİN II YARISINDA VƏ XX ƏSRİN İLK ONİLLİKLƏRİNDƏ ZAQATALA BÖLGƏSİ ÜZRƏ ƏHALİNİN SAVADLILIQ SƏVİYYƏSİ ........ 377
**Sevinc Orucova** ***(BDU)***
ÖZÜNÜAKTULLAŞDIRMA FENOMENİ VƏ ŞƏXSİYYƏTİN İNKİŞAF İSTİQAMƏTLƏRİ ........ 384
**Лаля Шейхова**
**Айгюн Гаджиева** ***(АУЯ)***
МЕЛАНОМА КОЖИ ........ 393
**Günay Quliyeva** ***(ADU)***
İXTİSASI DİL OLAN ALİ MƏKTƏBLƏRİN AŞAĞI KURSLARINDA TƏLƏBƏLƏRƏ OXU VƏRDİŞLƏRİNİN AŞILANMASININ ƏHƏMİYYƏTİ ........ 400
**Fidan Babayeva** ***(ADU)***
İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİNDƏ İSTİFADƏ OLUNAN YAZI NÖVLƏRİ ........ 406
**Qəribə Əlizadə** ***(ADU)***
ŞAH İSMAYIL TARİXİ ŞƏXSİYƏT KİMİ ........ 410
**Elman Məmmədov** ***(ADU)***
İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA BÖYÜK BRİTANİYA-FRANSA ARASINDA İQTİSADİ MÜNASİBƏTLƏRİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ ........ 419
**Şəhla Kazımova** ***(ADU)***
EŞİDİB-ANLAMA VƏRDİŞLƏRİNİN İNKİŞAFINDA İSTİFADƏ OLUNAN VASİTƏLƏR ........ 425

**dos. Həmidə Əliyeva**
***ADU***

# EPİK ŞÜURUN YARANMASI VƏ EPİK POEZİYA ANLAYIŞI

***Açar sözlər:*** *epos, mif, simvol, epik şüur, dünyagörüşü*
***Keywords:*** *epic, myth, symbol, epic conscious, outlook*
***Ключевые слова:*** *эпос, миф, символ, эпическое сознание, мировоззрение*

Mif haqqında çoxsaylı təriflərin olmasına baxmayaraq, o, ilk növbədə qədim insanın dünya haqqındakı təsəvvürlərinin obrazlı təqdimatıdır. Məşhur mif tədqiqatçısı Y. E. Qolosovker bu fikri daha da genişləndirərək yazır: "<...> Mif, xüsusilə də, ellin mifi dünyanın, onun dəbdəbəli, dəhşətli və ikimənalı müəmmaları ilə birgə dərk edilməsinin obrazlarla güzgülənmiş təcəssümüdür" [1, s. 12]. Mif, eyni zamanda, hansısa ilkin biliklər toplusu da deyil, o, ən erkən mədəniyyət formasıdır. M. Eliadenin sözlərilə desək, "mif mədəniyyətin fövqaladə dərəcədə mürəkkəb gerçəklərindən biridir" [2, s. 33]. Bəşər tarixində mühüm əhəmiyyətə malik olan mif dinlərin və elmin meydana gəlməsindən əvvəl minilliklər boyu insanların dünyagörüşünün əsasını təşkil etmiş, müəyyən tarixi zaman kəsiyində insan cəmiyyətinin dəyərlər sistemini, davranış normalarını və qaydalarını müəyyən etmişdir. Yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, mif bir yandan bədii mətn kimi dünyanın obrazlı, sözlə təsviridirsə, digər tərəfdən gerçəkliyin " mifoloji şüurdakı obrazlaşmış təsəvvürlər sistemi-dünya modelidir " [ 3, s. 23].

Mifdə simvolik ifadəsini tapan həqiqətlər nağıllarda fantastik obrazlar və epizodlar, eposda real həyat təsvirləri və konkret şəxsiyyətlər vasitəsilə daha monumental və vüsətli əksini tapır. Müəyyən tarixi məqamda dünyanın mifopoetik dərki epik şüurun yaranması və sosial, mədəni, ictimai faktorların önə çıxması səbəbilə öz yerini növbəti yaradıcılıq növünə-epik poeziyaya verir. Mifdən fərqli olaraq epos allahlar və digər ilahi varlıqlar haqqında olan rəvayətləri deyil, insanın əməllərindən bəhs edən qəhrəmanlıq nəğmələrini ehtiva edir. Eposun məzmunun qəhrəmanlıq səciyyəsi daşıması, konkret olaraq insanın şücaətlərini vəsf etməsi onun başlıca əlaməti sayılır. Elə eposun ümimi əlamətlərindən danışan V. Y. Propp da ilk növbədə bu faktı vurğulayırdı: "Epos onun mahiyyətini həmən təyin edən hansısa bir əlamətlə müəyyənləşmir. O, bir sıra əlamətlərə malikdir və yalnız onların məcmusu eposun nə olduğuna düzgün və tam təsəvvür yaradır. Eposun ən vacib və həlledici əlaməti onun məzmunun qəhrəmanlıq səciyyəsi daşımasındadır. Epos xalqın kimi və hansı xidmətlərinə görə qəhrəman adlandırmasını göstərir" [4, s. 5].

Həqiqətən xalqın seçdiyi qəhrəman və onun mübarizəsinin xarakteri o xalqın özünün milli kimliyi, hansı milli və bəşəri dəyərləri daşıması, bəşər tarixinin ümumi inkişaf yolunda oynadığı rolun əhəmiyyəti barəsində qiymətli məlumatlar verir. Epos hər bir xalqın milli kimliyini və mənəvi simasını təsdiq edən şəxsiyyət vəsiqəsidir. Tarixə nəzər salarkən bütün böyük xalqların dövlət quruculuğunun onun dastan bağlamaq sənəti ilə paralel inkişaf etdiyini görərik. Hətta bəzi dövrlərdə bu məsələ dövlət ideologiyasının ayrılmaz hissəsinə də çevrilmişdir. Məsələn, Qktavian Avqust hakimiyyəti dönəmində Romanın qəhrəmanlıq tarixinin yenidən yazılması və onun vəsf olunması məqsədilə məşhur şair Vergiliyə "Eneida" əsərini yazmağı sifariş etmişdir. Firdovsinin İran şahlarının tarixindən bəhs edən "Şahnamə"sini, Torkvato Tassonun "Azad edilmiş Yerusalim" ini, Luis de Kamoensin "Luziada"sını, Volterin "Henriada"sını və onlarla bu xüsusda olan tarixi-qəhrəmanlıq poemalarını da bura əlavə etmək olar.

İnsanın bir fərd olaraq keçdiyi tarixi təkamül yolu epik obrazlar sitemində, onun mənsub olduğu cəmiyyətin etik-əxlaqi və mənəvi dəyərlər kontektində oz əksini tapır. "Bilqamıs haqqında dastan", " Enuma-eliş", "Mahabarata", "İllidada", "Odisseya" "Kitabi-Dədə Qorqud", "Beovulf", "Edda", alman və fransız eposları- bütün bunlar onları yaradan xalqların tarixi, mədəniyyəti və etnopsixoloji xüsusiyyətləri barəsində bəzən tarixi xronikalardan və eilmi mənbələrdən daha aydın və səhih məlimatlar əldə etməyə imkan verir. Əslində hər bir epos məxsus olduğu xalqın azacıq mifoloji rəngə boyanmış və bir qədər ideallaşdırılmış real tarixidir. Bu mənada F. Bekon haqlı olaraq epik poeziyanı "tarixin imitasiyası" adlandırırdı. Bekona görə epik poeziya ilk növbədə nəcib, xeyirxah əsaslara söykənir ki, bu da insan təbiətinin özündən irəli gəlir. Poeziya insan təbiətinə tarixin verə bilmədiyi nəsnələri artıqlamasilə verir, gerçəkliyin tam mümkün olmadığı hallarda insan ağlını onun kölgələri ilə ovundurur. Filosofun fikrincə poeziyada insanın daha yüksək ideallara, daha mükəmməl nizama və daha rəngarəng gözəlliyə can atmasının təkzibolunmaz sübutlarına rast gəlmək olar. Halbuki bütün bunlar bəşər nəslinin meydan gəldiyi gündən bu yana ona bu şəkildə müyəssər olmamışdır. " Ona görə də gerçək tarixin predmetini təşkil edən əməllər və hadisələr insan ruhunu qane edən bu cür möhtəşəmliyə malik olmadıqları üçün daha cəsur hadisələr yaradan poeziya meydana gəlir " [5].

Məlumdur ki, epik hekayətlərin yaranmasında və formalaşmasında mif əhəmiyyətli rol oynamışdır. Lakin mif eposun alt qatını, belə demək mümkünsə, əsasını təşkil etsə də epik düşüncə ilə mifoloji təfəkkür arasında bir sıra fərqlər mövcuddur. Əvvəla dünyanın epik təsviri mifoloji təsvirdən onunla fərqlənir ki, miflərdə əsas qəhrəmanlar müxtəlif təbiət və sosial qüvvələri simvolizə edən fantastik varlıqlardır. Burada insanlar əksər hallarda bu qüvvələrin qarşısında acizdirlər və onlardan asılıdırlar. Epos isə

məhz insan faktorunu ön plana çəkir, onu dünyanın mərkəzi fiquruna çevirir. Epik poeziyanın qəhrəmanı olan insan dünyanı dəyişməyə və yenidən qurmağa qadir güclü varlıq, ictimai həyata fəal müdaxilə edən, ən əsası isə mifoloji bədheybətlərə, Xaos qüvvələrinə qalib gələn mədəni qəhrəmandır. Eposun qəhrəmanı olan insan burada hansısa bir fərdin, şəxsiyyətin deyil, onun simasında əksini tapan bütöv bir xalqın əməllərini, ideallarını təcəssüm etdirir. E. M. Meletinski yazır: "Əgər mifdən nağıla keçiddə mifoloji kosmos qismən "ailə ilə" pərdələnirsə, mifdən qəhrəmanlıq eposuna keçiddə bir qayda olaraq tarixən mövcud olmuş tayfalar və arxaik dövlətlər ön plana çıxır" [6, s. 269]. Arxaik eposda tayfanın keçmişi "əsil insanların" tarixi kimi təsvir edilir və onların mənşəyi, mədəniyyət elementləri əldə etməsi və müxtəlif əcaib varlıqlardan qorunması müəyyən təhkiyə formasında təqdim olunur.

Eposda dünya insana artıq mövcud olan varlıq kimi təqdim olunur, şüurunda bu şəkildə kök salır, tədricən onun daxili dünyasının ölçüləri ilə uzlaşır. İnsanın daxilində subyektlə obyektin sərhədləri müəyyənləşir, onun şüurunda dünyanın daxili obrazı formalaşmğa başlayır. Yeni dünyagörüşünün yaranması həm də epik baxışın və epik nöqteyi-nəzərin yaranmasına gətirib çıxarır. Epik baxış tədricən mifik dünyaduyumundan epik dünyagörüşünə keçidi şərtləndirir. Bəzi tədqiqatçılar mifologiyanı eposun təşəkkülün ilk pilləsi hesab etsələr də sonrakı mərhələlərdə onun rolunun şişirdilməsinə qarşı çıxırlar. Məsələn, V. Y. Propp bu xüsusda yazır: " Epos mifologiyanın əsasında yaranır. Lakin bu o demək deyildir ki, epos mifologiyanın davamı və inkişafıdır. Mifologiyanın yaratdığı bədii ehtiyyatdan yararlanaraq epos özünün ideoloji istiqamətinə görə boy atdığı mifologiyaya qarşı yönəlir" [7, s. 33].

Mifologiyadan fərqli olaraq epik poeziya ictimai şüurun bütün formalarının sinkretik birləşməsi deyildir. Epik poeziyanı dünyanın sırf mifoloji təsviri və izahı, yaxud da hansısa konkret tarixi hadisənin əksi də hesab etmək olmaz. O, hər şeydən əvvəl hər bir xalqın simvolik işarələrlə kodlaşdırılmış tarixi təcrübəsinin və ideallarının obrazlı, bədii ifadəsidir. Epik poeziya bir yandan müəyyən estetik funksiyaları yerinə yetirən bədii təxəyyül məhsuludursa, digər tərəfdən qədim mifoloji dünyagörüşünün qalıqlarını özündə ehtiva edən əxlaqi dəyərlər və normalar toplusudur. Hər bir xalqın keçdiyi tarixi-mədəni inkişaf yolu, milli kimliyinin müəyyənləşməsi, dünyagörüşü siteminin və estetik zövqünün formalaşması onun yaratdığı eposda bədii əksini tapır. Bu mənada demək olar ki, epos hər şeydən əvvəl xalqın tarixi təcrübəsinin və ideallarının bədii, obrazlı, simvolik mənalarla dolu ifadəsidir. Lakin epik hekayətləri tamamilə estetik kateqoriyaya aid etmək də düzgün olmazdı. Tədqiqatçı alim A. X. Davletkulov yazır: "Epik poeziya estetik funksiyaları yerinə yetirən sırf bədii uydurma kimi yaranmır, ötürülmür və dərk olunmur. Epik əsərlər müstəsna dərəcədə "pozul-

muş" dünyagörüşü, etik və sosilal funksiyaların əlavəsi kimi məlumdur. Burada qədim mifoloji dünyagörüşünün qalıqları qorununr və yenidən dərk edilir, əxlaqi ideallar və normalar ifadəsini tapır, dövrlə səsləşən sosial-tarixi hərəkət proqramları təklif olunur. Lakin bütün bunlar hər şeydən əvvəl öz təbiətinə görə özünəməxsus, simvollaşdırılmış obrazlarla ifadə edilir" [8, s. 512].

Qəhrəmnlıq eposlarının erkən formalarının mənşəyinin araşdırılması bütünlükdə dünya ədəbiyyatının yaranma tarixi və inkişaf yollarının müəyyənləşməsində müstəsna əhəmiyyət daşıyır. Odur ki, həm Qərb, həm də Şərq eposlarının araşdırılması ayrı-ayrı dövrlərdə tədqiqatçıların diqqət mərkəzində dayanaraq bu xüsusda müəyyən metod və nəzəriyyələrin yaranmasına səbəb olmuşdur. Dünya eposunun öyrəniməsi məsələləri ilə K. və M. Çedviklər, S. M. Baura, V. N. Veselovski, V. N. Jirmunski, V. V. Meletinski, V. Y. Propp, J. Bedye, R. Menendes Pidal və digər bu kimi tanınmış alimlər məşğul olmuş, onun yaranması və inkişafı ilə bağlı müxtəlif nəzəriyyələr irəli sürmüşlər. Artıq yuxarıda qeyd olunduğu kimi bir çox tədqiqatçılar eposu əsasən tarixilik prinsipinə əsasən araçdırmış, onun mətnini tarixin konkret bir zaman kəsiyi müstəvisində şərh etməyi əsas götürmüşlər. Tarixi məktəb adlanan bu istiqamətin tanınmış nümayəndələrindən olan K. və M. Çedviklərin çoxcildli "Ədəbiyyatın yaranması" [9] əsəri bütünlüklə bu problemin öyrənilməsinə həsr olunmuşdur. Çedviklərin nəzəriyyəsinin əsas müddəası tarixi dəqiqlik və eposun xronikalılığı idi. Öz fikirlərini əsaslandırmaq məqsədilə "Beovulf" dastanını misal gətirən müəlliflər iddia edirdilər ki, bu əsər frankların xronikalarından mötəbərdir və Xigealakı danimarkalıların deyil, geatların kralı kimi daha dəqiq müəyyən edir. Eləcə də onlar irland eposunu, "İliada"nı və Bibliyanı mötəbər mənbə kimi götürərək Konxobarın, Aqamemnonun və Davudun tarixi şəxsiyyətlər olmasına şübhə etmirdilər. Onlar demək olar ki, bütün epik qəhrəmanları xronika və səlnamələrdə adı xatırlanan şəxslərlə eyniləşdiridilər. Eposun qeyri-tarixi elementləri isə, Çedviklərə görə bədii məqsədlərə xidmət edir və onun tarixi həqiqiliyini sual altına qoymur. Bu və ya digır hadisənin sonradan unudulması nəticəsində eposun bəzi elementləri öz tarixiliklərini itirirlər ki, bu da xronoloji dolaşıqlığa gətirib çıxarır. Bu faktı izah edərən Çedviklər alman qəhrəmanlıq eposunu misal gətirir və göstərirdilər ki, məhz tarixiliyin pozulması nəticəsində Teodorix, Ermanarix və Atilla kimi obrazlar öz gerçək tarixi zamanına yox müasirliyə uyğun (yəni eposun formalaşdığı dövrə – H.Ə.) təsvir olunmuşlar. İlkin tarixi faktdan uzaqlaşaraq bədii təxəyyülə yer verilməsini onlar mifə keçid kimi qiymətləndirirdilər. Yəni eposun alt qatı, bünövrəsi olan mif onun formalaşmasının sonuncu mərhələsini təşkil edidi. Çedviklər ilk epos nümunələrinin Qədim Şərq sivilizasiyalarına məxsus olması və dünyaya oradan tədricən yayılması faktını da istisna etmirdilər. Elmi fikirdə bu barədə ilk olaraq danışan belə

demək mümkünsə S. N. Kramer olmuşdur. Şumer mədəniyyətinin və tarixinin mahir bilicisi sayılan tədqiqatçı apardığı uzunillik araşdırmalar nəticəsində belə qərara gəldi ki, "ən qədim qəhrəmanlıq rəvayətləri Şumerdə meydana gəldiyi üçün ehtimal etmək olar ki, epik poeziyanın vətəni İkiçayarasıdır" [10, s. 234].

Professor S. N. Kramerə görə müxtəlif xalqlarda müxtəlif dövrlərə təsadüf edən *"qəhrəmanlıq epoxaları"* heç də onların bədii təxəyyülünün *məhsulu kimi qəbul olunmamalıdır. O, yazır: " Bu gün – əsasən ingilis alimi* M. Çedvikin əsərlərinə minnətdar olaraq – bütün alimlər bununla hesablaşmağa məcburdular. Üç daha məşhur nümunəni göstərmək kifayətdir: Yunanıstanın e. ə. II minilliyin lap sonlarına aid epik zamanını, Hindistanın ehtimal ki, bundan yüz il sonra başlanan epik zamanı və Avropanın şimalında qədim germanların epik zamanı (bizim eranın IV- VI əsrləri). Bu üç dövr oxşar ictimai quruluşuna, siyasi təşkilatçılığına, dini inanclarına və analoji estetik kriteriyalarına görə fərqlənirlər. Aydındır ki, hər üç epoxanın bünövrəsində anloji sosial və siyasi faktorlar və psixika dayanırdı" [11, s. 232].

M. Çedvik də uyğun dövrlərin ədəbi materiallarını öyrənərkən belə qənaətə gəlmişdi ki, yunanların, hindlilərin və germanların epik zamanı barbarlıq dövrünə aiddir və eyni xarakterik xüsusiyyətlərilə fərqlənirlər.

Eposun nəzəri problemləri ilə məşğul olan digər tədqiqatçı S. M. Boura epos, tarix və mif məsələlərində Çedviklərin fikirlərini bölüşürdü. O, tarixi məktəbin müddəalarının sübutu üçün yeni materiallar əldə edərək bütün epik qəhrəmanların tarixi prototiplərini tapırdı. Baura əsil tarixi hadisələrin unudulmsını və hekayətçinin tarixə "dramatik" baxışını nəzərə alaraq eposdakı dəyişikləri üç qrupa bölürdü: 1) qəhrəmanların və hadisələrin birləşdirilməsi və göylərə qaldırılması, 2) tarixi faktların seçilməsi və onlar arasında yeni dramatik əlaqələrin qurulması, 3) süjetin dolğunluğunu artırmaq məqsədilə tarixi hadisələrə əlavələr edilməsi.

Bouraya görə qəhrəmanlıq dastanları sintez şəklində inkişaf edir. Alim hesab edir ki, eposun poetik texnikası ilk növbədə onu ibtidai "şaman" poeziyası ilə əlaqəlidir. Boura bunu eposda allahların iştirakı və qəhrəmanlıq poeziyasında taleyin rolu ilə izah edir. Digər tərəfdən isə o, eposun mətnindəki antropomərkəzçi təsəvvürlərə, yəni insanın Kainatın ortaq nöqtəsi və dünyada baş verən bütün hadisələrin məqsədi olması kimi qeyri-elmi görüşlərə, söykənərək onu mədhiyyə və ağının sintezi hesab edirdi.

S. M. Bouraya görə ilk vaxtlarda primitiv təhkiyə forması kimi meydana gələn epos bir neçə yaradıcılıq mərhələlərindən keçərək təkmilləşmişdir. Şaman poeziyasını bu prosesin ilk mərhələsi hesab edən alim yazır: " Başlanğıc mərhələni şaman poeziyası təşkil edir, burada mərkəzi fiqur kimi maq çıxış edir, möcüzə və magiya –müvəffəqiyyət qazanmağın başlıca vasitəsidir. Sonra o, universiumun yeni antropomərkəzçi konsepsiyasının ruhu ilə təmasda olur. Mədhiyyədə və ağıda yaranaraq o, sonradan təhkiyyəyə

qarışır və insanların və allahların birgə iştirak etdiyi qəhrəmanlıq poeziyasını yaradır. Bu isə öz növbəsində allahlar haqqında poeziyaya və qəhrəmanlar haqqında poeziyaya şaxələnir [12, s. 36].

Eposun gerçək tarixilə əlaqəsi məsələsinə münasibət bildirən S. M. Boura qeyd edir ki, qəhrəmanlıq poeziyasını yaradan insanlar xronologiya ilə maraqlanmırlar və onun haqqında az biirlər. Bu insanlar adətən savadsızdırlar və onların kitablardan tarixi ardıcıllıqla olduğu kimi oxumaq imkanları yoxdur. Ona görə də təhkiyəçilər üçün qəhrəmanlıqla dolu keçmiş şüurlu tarixi xarakter daşımır, daha geniş, əsil insani duyğu və əməlləri ehtiva edir. “Bu konsepsiya materialın genişliyini sadələşdirir və nizamlayır, müxtəlif süjetləri öz aralarında bir-birlə uyğunlaşdırır və bizim təxəyyülümüzdə qəhrəmanların yaşadığı, fəaliyyət göstərdiyi və öldüyü həmin dünyanın obrazını yaradır” [13, s. 41].

Eposun araşdırılması sahəsində əhəmiyyətli rol oynayan nəzəriyyələrdən biri V. N. Jirmunskinin adı ilə bağlı olan tarixi-tipoloji müqayisə metodudur. Dünya ədəbiyyatını vahid, qanunauyğun proses kimi götürən bu nəzəriyyə epik əsərlərin yaranma tarixindən, coğrafi məkanından və zamanından asılı olmayaraq onları eyni əhəmiyyətli mədəni hal kimi nəzərdən keçirir və tədqiq edir. Bu nəzəriyyəyə görə bəşər tarixinin keçdiyi tarixi – inkişaf prosesinin ümumi qanunauyğunluqları və vəhdəti ədəbiyyat tarixinin müqayisəli aspektdə öyrənilməsi üçün əsas zəmindir və gerçəkliyin obrazlı dərki olan bədi aədəbiyyat ictimai ikişafın müxtəlif mərhələlərində tamamilə mxtəlif tipoloji analogiyalar təqdim edir.

İnsan cəmiyyətinin tarixində elə bir mərhələ yoxdur ki, orada istənilən istənilən mədəniyyət özünəqapalı şəkildə başqa mədəniyyətlərin təsiri olmadan inkişaf edə bilsin. Hansısa mədəniyət dominanat rolunu oynaya bilər, amma bu prosesin özü də qarşılıqlı bəhrələnmə şəraitində həyata keçir. Söhbət gerçəkliyin bədii inikası olan bədii ədəbiyyatdan gedirsə, problemin “beynəlxalq ədəbi təsirlər” kontekstində öyrənilməsi zərurəti yaranır. Bu zaman V. M. Jirmunskinin sözlərilə desək, “ <... > ədəbiyyatlar arasında beynəlxalq qarşılıqlı əlaqələrin geniş mövcudluğu faktı heç də daha ümumi paralelizm problemini və ədəbi inkişafın tipoloji analogiyalarını aradan qaldırmır, əksinə məhz ədəbi inkişafın analoji təmayülləri ədəbi qarşılıqlı əlaqələrin “təsiri”ni və “ alınmaları” prinsipial olaraq mümkün edir” [14, s. 7].

**Ədəbiyyat**


1. Qolosovker Y. E. Mifin məntiqi. Bakı: “Kitab aləmi” nəşriyyat-poliqrafiya mərkəzi, 2006, 316 s.
2. Элиаде М. Аспекты мифа. Москва: Академический проект, 2001, 240 с.
3. Rzasoy S. Oğuz mifologiyası. Bakı: “Nurlan”, 2009, 363 s.
4. В. Я. Пропп, Русский героический эпос, Издание второе, исправленное, Москва, 1958, с. 604
5. Ф. Бэкон, Великое восстановление наук. Разделение наук. www. litmir.co/br?b=53545&p=28

6. Мелетинский Э. М. Поэтика мифа. Москва:1976, 409 с.
7. В. Я. Пропп, Русский героический эпос, Издание второе, исправленное, Москва, 1958, с. 604
8. Давлеткулов А. Х. Картина мира в эпической поэзии башкир, Мир науки, культуры, образования. № 6 (49), 2017, с. 512-514
9. K. M. Chadwick and M. K. Chadwick, The Growth of Literature, vol. I-III, London 1932-1940
10. С. Н. Крамер История начинается в Шумере. Главная редакция Восточной литературы. «Наука», М.: 1965, 256 с
11. Yenə orada
12. Боура С. М. Историческая поэзия, М.: Новое литературное обозрение, 2002.- 808 с.
13. Боура С. М. Историческая поэзия, М.: Новое литературное обозрение, 2002.- 808 с
14. Жирмунский В.М. Народный героический эпос. Сравнительно исторические очерки. Государственное издательство художественной литературы. М.-Л.: 1962, 434 с.

**Summary**
**Epic consciousness and the notion of the epic poetry**

The article investigates the problem of the genesis of epic poetry as a genre, evolutionary ways, and other theoretical issues related to the epic study. The author of the article views myth as the main component and the basic part of the epic. The article considers the main theoretical conceptions of the epic study based on the researches by such famous scientists as K. M. Chadwick, M. K. Chadwick, S. Bowra, V. Veselovski, V. Zhirmunsky, V. Meletinsky and V. Propp.

**Резюме**
**Эпическое сознание и понятие эпической поэзии**

В статье рассматриваются проблемы генезиса эпической поэзии, как жанра, его пути эволюции и другие теоретические вопросы, связанные с исследованием эпоса.

Автор статьи, в первую очередь, исследует миф, как основной компонент и фундамент эпоса.

В статье использованы основные теоретические концепции эпосоведения, на примере научных трудов таких известных исследователей как К. Чедвик, М. Чедвик, С. Боура, В. Н. Веселовского, В. Н. Жирмунского, В. В. Мелетинского и В. Я Проппа.

*Rəyçi: fil.e.d., prof.Ş.Xəlilli*
*ADU-nun Xarici ölkələr ədəbiyyatı kafedrasının*
*05.11.2015-ci il tarixli iclasının*
*03 saylı protokolundan çıxarış.*

*Daxil olma tarixi: 27.11.2015*